# Şəhidin xatirəsinə həsr olunmuş futzal turniri

***Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin təşkilatçılığı sayəsində Vətən müharibəsi şəhidi Samir Elçin oğlu Allahverdiyevə həsr olunan futzal turniri keçirildi. Lənkəran Olimpiya İdman Kompleksində baş tutan turnirin təşkilində məqsəd Vətən şəhidlərinin xatirəsinin anılması, onların həyat və döyüş yolu barədə gənc nəsillərə ətraflı məlumat verilməsi idi.***

Turnir Dövlət Himninin oxunması və şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başlandı. Çıxış edənlər Vətən uğrunda canından keçən şəhidlərin döyüş meydanında göstərdiyi qəhrəmanlıqdan söhbət



açdılar , ölkə rəhbəri, Ali Baş Komandan İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhidlərin adının daimi yaşaması üçün , eləcə onların xatirəsinin əziz tutulması və şəhid ailələrinin bütün problemlərinin həlli istiqamətində aparılan işlərdən, dövlət tərəfindən şəhid ailələrinə göstərilən diqqət və qayğıdan danışdılar. O da vurğulandı ki, yüksək amal uğrunda canını fəda edən şəhidlərin xatirəsinə hər zaman diqqətlə yanaşılması mənəvi borcumuzdur.

Şəhid valideynləri də öz növbəsində dövlət tərəfindən göstərilən qayğıya, övladlarının xatirəsinin əbədiləşdirilməsi istiqamətində həyata keçirilən bütün addımlara görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıq etdilər.

Yekunda qalib komandaya kubok və oyunda fərqlənən idmançılara isə diplomlar təqdim olundu.

***Zəfər Orucoğlu,***
***AJB üzvü***